# HEYDƏR ƏLİYEV 100 İLLİK YUBİLEY KİTAB SƏRGİSİ

## FƏDAKARLIQ, LİDERLİK, VƏ İLHAM DOLU ƏSRİN TƏNTƏNƏSİ

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ KİTABLAR, ELM VƏ MƏDƏNİYYƏT BAYRAMI OLAN BEYNƏLXALQ TƏDBİRƏ SİZ DƏ QATILIN

# PROQRAM



# MÜNDƏRİCAT

**PROQRAM** ........................................................................................ **3**

**SPONSORLAR** ........................................................................................ **8**

**İŞTİRAKÇI ŞİRKƏT/MÜƏSSİSƏ(LƏR)** ........................................................ **10**

**ÇIXIŞÇILAR/MÜƏLLİFLƏR** ........................................................................ **12**

25.10.2023 - Çıxışçılar və Müəlliflər ........................................................ 12
26.10.2023 - Çıxışçılar və Müəlliflər ........................................................ 16
27.10.2023 - Çıxışçılar və Müəlliflər ........................................................ 20

**MƏKAN: TƏDBİR & ASUDƏ ZAMAN** ........................................................ **26**

# PROQRAM

## 25 Oktyabr 2023

## Gün 1.

### Qeydiyyat və Kofe/Çay/Şirniyyat

| Vaxt | Məkan | Prosedur |
|---|---|---|
| 9:00 – 9:45 | Bina C Əsas Giriş | Qeydiyyat |
| 9:15 – 9:45 | Bina C Əsas Giriş | Kofe/Çay/Şirniyyat |

### Salamlama və Açılış Nitqləri

### Bina C. Tələbə Mərkəzi – Akt Zalı

| Vaxt | Təmsilçi şəxs | Müəssisə və Vəzifə |
|---|---|---|
| 10:00 – 10:10 | Dr. Vəfa Kazdal | ADA Universiteti<br>Strategiya və İnkişaf üzrə Prorektor |
| 10:10 – 10:20 | Dr. Elkin Nurməmmədov | ADA Universiteti<br>Akademik İşlər üzrə Prorektor |
| 10:20 – 10:30 | Aliaksandr Rytau<br>(C. Aleksandr Rıtov) | EBSCO Information Services<br>Regional Satış Meneceri, Mərkəzi Asiya, Qafqaz və Moldova<br>Sponsor |
| 10:30 – 10:40 | Nicat İbrahimov | TEAS & LIBRAFF<br>CEO<br>Sponsor |
| 10:40 – 10:50 | Mayıl Əhmədov | Prezident Kitabxanası<br>Direktor |
| | | |
| Dr. Elçin Ç. Məmmədov<br>Moderator | | ADA Universiteti<br>Direktor, Kitabxana və İnformasiya Xidmətləri |

## Sərgi & Tur

| Vaxt | Sərgi/Tur |
|---|---|
| 11:00<br>17:00 | Heydər Əliyev 100 İllik Yubiley Kitab Sərgisi: Fədakarlıq, Liderlik və İlham Dolu Əsrin Təntənəsi<br>Bina C. Tələbə Mərkəzi. |
| 13:30<br>15:00 | ADA Kitabxanasına Tur<br>Kəşf et:<br>- Kitabxana xidmətləri<br>- Kitabxana fondları<br>- Kitabxana texnologiyaları<br>Dil: aze & eng |

## Seminarlar və Kitab Müzakirələri

| Vaxt | Təqdimatçı / Müəllif | Tədbir Məlumatı |
|---|---|---|
| 11:00<br>12:30 | Aliaksandr Rytau<br>(Aleksandr Rıtov)<br>EBSCO İnformasiya Xidmətləri<br>Regional Satış Meneceri, Mərkəzi Asiya, Qafqaz, və Moldova<br><br>Dr. Elçin Ç. Məmmədov<br>ADA Universiteti<br>Direktor, Kitabxana və İnformasiya Xidmətləri | Mövzu(lar): akademik informasiya resursları<br>Təqdimat: “Overview of the World’s Scientific Content represented in EBSCO databases and Discovery”<br>Dil: eng |
| 11:00<br>12:30 | Kənan Hacı<br>Şair, Yazıçı, Tərcüməçi<br><br>Yusif İlhamoğlu<br>Moderator<br>“Çapar” Yayınları<br>Direktor | Mövzu(lar): bədii ədəbiyyat, bioqrafiya, tarix<br>Kitab müzakirəsi və imza saatı<br>Kitab: “Fəna fasiləsi”<br>Dil: aze |

| | | |
|---|---|---|
| 13:30<br>15:00 | Elçin Əzimli<br>Yazıçı, Biznes Kouç & Təlimçi<br><br>Sərxan Rüstəmov<br>Moderator<br>LIBRAFF Mağazalar Şəbəkəsi PR Mütəxəssis | Mövzu(lar): bədii ədəbiyyat, tarix<br>Kitab müzakirəsi və imza saatı<br>Kitab: "Çağrı"<br>Dil: aze |
| 13:30<br>15:00 | Günel Əsgərova<br>Yazıçı və Ssenarist<br><br>Fatimə Babazadə<br>Moderator<br>ADA Universiteti Tələbə Xidmətləri və Məzunlarla iş üzrə Mütəxəssis, Tələbə Proqramları | Mövzu(lar): bədii ədəbiyyat, uşaq və gənclər üçün ədəbiyyat, tarix<br>Kitab müzakirəsi və imza saatı<br>Kitab: "Xanın üç qızı: Qarabağa həsr olunmuş nağıl"<br>Dil: aze |

## 26 Oktyabr 2023

## Gün 2.

**Sərgi & Tur**

| Vaxt | Sərgi/Tur |
|---|---|
| 10:00<br>17:00 | Heydər Əliyev 100 İllik Yubiley Kitab Sərgisi: Fədakarlıq, Liderlik və İlham Dolu Əsrin Təntənəsi<br>Gün 2.<br>Bina C. Tələbə Mərkəzi. |
| 12:00<br>13:00 | ADA Kitabxanasına Tur<br>Kəşf et:<br>- Kitabxana xidmətləri<br>- Kitabxana fondları<br>- Kitabxana texnologiyaları<br>Dil: aze & eng |

## Seminarlar və Kitab Müzakirələri

| Vaxt | Təqdimatçı / Müəllif | Tədbir Məlumatı |
|---|---|---|
| 11:00<br>12:00 | Dr. Ramil Əhmədov<br>Tədqiqatçı və Yazıçı | Mövzu(lar): pedaqogika, yazı, ədəbiyyat<br>Seminar: Yazının pedaqogikası: yaradıcı yazarlıq öyrədilə bilərmi?<br>Dil: aze |
| 11:00<br>12:30 | İnqilab Şahbazov<br>Tədqiqatçı və Yazıçı | Mövzu(lar): tədqiqat, araşdırma, elm<br>Seminar: "Tədqiqat Metodları"<br>Dil: aze |
| 14:00<br>15:00 | İltifat İbrahimov<br>"Crossref" şirkətinin Azərbaycan nümayəndəsi | Mövzu(lar): akademik, texnologiya, rəqəmsal obyektlər<br>Seminar: Crossref: Qlobal DOI Agentliyi: xidmətlər, yerli dəstək & DOI qeydiyyatı<br>Dil: aze |
| 15:00<br>16:30 | Yunis Orucov<br>Tədqiqatçı və Yazıçı<br><br>Tərlan Abbasova-Lətifova<br>Moderator<br>Kapital Bank<br>Aparıcı Mütəxəssis, TÖ & İİ | Mövzu(lar): bədii ədəbiyyat, siyasət, tarix<br>Kitab müzakirəsi və imza saatı<br>Kitab: "Boraltan"<br>Dil: aze |

## 27 Oktyabr 2023

## Gün 3.

### Sərgi & Tur

| Vaxt | Sərgi/Tur |
|---|---|
| 10:00<br>16:00 | Heydər Əliyev 100 İllik Yubiley Kitab Sərgisi: Fədakarlıq, Liderlik və İlham Dolu Əsrin Təntənəsi<br>Gün 3.<br>Bina C. Tələbə Mərkəzi. |
| 16:00<br>17:00 | Bağlanış mərasimi |

## Seminarlar və Kitab Müzakirələri

| Vaxt | Təqdimatçı / Müəllif | Tədbir məlumatları |
|---|---|---|
| 11:00<br>12:30 | Dos. Fariz Əhmədov<br>Dos. Yaşar Kəlbiyev<br>Dos. Aytən Hüseynli<br>Dos. Afaq Hüseyn<br>Doktorant Nərgiz Hacıyeva<br>Doktorant Etimad Rəhimli<br>Müəlliflər və Redaktorlar<br>UNEC<br>Dr. Adilə Abdullayeva<br>Moderator<br>Direktor<br>Kitabxana və İnformasiya Mərkəzi<br>UNEC | Mövzular: iqtisadiyyat, siyasət, dövlətçilik<br>Kitab və elmi müzakirə<br>Kitab: “Bir əsrin iqtisadi portreti: Heydər Əliyev 100”<br>Dil: aze |

## SPONSORLAR

### EBSCO

EBSCO Industries, Inc. 1944-cü ildən etibarən fəaliyyət göstərir. Abunəlik xidməti üzrə kiçik agentlik kimi fəaliyyətə başlayan EBSCO qısa zaman ərzində kitabxana xidmətləri sənayesində öncüllərdən birinə çevrilmişdir.

EBSCO keyfiyyətli tədqiqat materialları, axtarış texnologiyaları və çatdırılma platformalarının təmin edilməsi üzrə sənaye lideri kimi rolunu qoruyub saxlamaqdadır. Vizyon, fəaliyyət, innovasiya və davamlı təkmilləşməyə olan sadiqliyi ilə EBSCO müştərilər üçün məhsul və xidmətlərin uzunmüddətli inkişafını təmin etmək məqsədilə biznes sərmayələrinə imza atır.

Hazırda EBSCO çoxşaxəli informasiya xidmətlərinin göstərilməsi sahəsində qlobal liderdir. O təkcə dövri nəşrlərə və elmi jurnallara abunəlik ilə deyil, həm də biblioqrafik və tam mətnli məlumat bazaları, rəqəmsal arxivlər, elektron kitablar, oxucular üçün məsləhətlər, sübuta əsaslanan klinik qərar qəbuletmə vasitələri və s. vasitəsilə premium məzmun təklif edir. Aparıcı texnologiya şirkəti kimi EBSCO həmçinin məlumat kolleksiyalarının yaradılması və idarə edilməsi, istifadənin təhlili, kitabxana sistemləri ilə inteqrasiya və məzmunun son istifadəçilərə çatdırılması üçün çoxfunksiyalı platformalar və alətlər dəsti təmin edir.

Ümumilikdə EBSCO-nun əsas fəaliyyət istiqamətlərinə daxildir:

- EBSCONET jurnal abunəliyi və menecmenti
- EBSCOhost onlayn verilənlər bazaları
- EBSCO elektron kitabları
- EBSCO tərəfindən GOBI Library Solutions (akademik çap və e-kitab təmini üçün)
- Flipster rəqəmsal jurnalları
- Learning Express bacarıq inkişaf etdirmə, sınaq hazırlığı, dərs vəsaitləri və ixtisasartırma üçün resurslar
- Professional Services ilə kitabxana məsləhəti
- Rosetta Stone, MyHeritage Library Edition, ABC-CLIO və s. kimi lisenziyalı, ikinci dərəcəli verilənlər bazaları
- NoveList oxucular üçün məsləhət xidməti

• Tibbi yardım göstərilməsi və kliniki qərarların qəbuluna dəstək vasitələri
• EBSCO Discovery Service də daxil olmaqla, proqram təminatının xidmət kimi funksiyası
• Veb sayt dizaynı və məzmunun idarə edilməsi üçün toplular
• EBSCO tərəfindən FOLIO Xidmətləri (FOLIO OS-LSP-nin tətbiqi, hostinqi və tənzimlənməsi)
• OpenAthens identifikasiya dəstəyi

## TEAS PRESS

Azərbaycanın müasir nəşriyyat sferasında ən qabaqcıl nəşriyyat evinə çevrilən və özünəməxsus dəst-xətti olan "TEAS Press" Nəşriyyat Evi Azərbaycanda kitabçılıq işinə dəstək vermək, xarici dillərdən akademik və müxtəlif nəşrlərin Azərbaycan dilinə yüksək keyfiyyətlə tərcüməsi və nəşri, həmçinin Azərbaycanın xaricdə tanıdılmasına töhfə vermək məqsədilə Avropa Azərbaycan Cəmiyyəti tərəfindən 2014-cü ildə təsis edilmişdir.

## LIBRAFF

2017-ci ildə təsis olunmuş “LIBRAFF” qısa zaman ərzində Azərbaycan kitab ticarəti sahəsində bir brend kimi təqdir olunan ən böyük modern kitab mağazaları şəbəkəsidir. Şirkət Bakı şəhərində 6, Gəncədə və Sumqayıtda 1 mağaza ilə təmsil olunur. “LIBRAFF”ın azərbaycan, rus, ingilis, türk və digər xarici dillərdə olan zəngin kitabxanası mövcuddur. Mağazalarımızda yerli və aparıcı beynəlxalq nəşriyyatların klassik əsərlərini, xüsusi seçilmiş müasir ədəbiyyat nümunələrini, uşaq və yeniyetmələrin şəxsi inkişafına istiqamətlənmiş əyləncə və oxu materiallarını əldə etmək mümkündür. “LIBRAFF” mağazalarının üçündə “coffeeshop in bookshop” konseptində “STORIES COFFEE” mövcuddur.

## İŞTİRAKÇI ŞİRKƏT/MÜƏSSİSƏ(LƏR)

### Nəşriyyatlar

"TEAS Press" Nəşriyyat Evi

"Çapar" Nəşriyyat Evi

### Aqreqator, Kitab Mağazaları və Texnologiya Şirkətləri

"EBSCO" İnformasiya Xidmətləri

"LIBRAFF" Kitab Mağazaları Şəbəkəsi

"Halal-P" Texnologiyalar və Həllər

### Kitabxanalar (akademik, universitet, xüsusi)

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi "Prezident Kitabxanası"

Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin "Kitab Evi"

AMEA Mərkəzi Elmi Kitabxana

Bakı Dövlət Universiteti

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

**UNEC Azərbaycan Dövlət İqtisad Universiteti**

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası**

**Azərbaycan Dillər Universiteti**

**Azərbaycan Texniki Universiteti**

**Milli Aviasiya Akademiyası**

**Qərbi Kaspi Universiteti**

**Bakı Amerika Mərkəzi**

**Bakı Ali Neft Məktəbi**

## ÇIXIŞÇILAR/MÜƏLLİFLƏR

**25 OKTYABR 2023**

**GÜN 1.**

## Aleksandr Rıtov



Aleksandr Rıtov "EBSCO Publishing Inc."-in Regional Nümayəndəsi kimi Mərkəzi Asiya, Qafqaz ölkələri, Moldova üzrə akademik və tədqiqat institutları, kütləvi kitabxanalar, tibb müəssisələri və korporativ təşkilatlarda "EBSCO" e-resurslarının və proqram həllərinin təşviqi istiqamətində fəaliyyət göstərir. 20 ildən artıq davam edən peşəkar karyerasında akademik sahədə beynəlxalq əməkdaşlıq əhəmiyyətli yer tutur. O, PhD proqramını uğurla başa vuraraq tədris və tədqiqat sahəsində də təcrübə qazanmışdır. Minskdəki Erasmus+ Ofisinin inzibatçısı kimi çalışdığı müddətdə o, qlobal müxtəlifliyin üstünlüklərindən yararlanmaq üçün Ali Təhsil Müəssisələrində (ATM) beynəlxalq, təhsil və tədqiqat imkanlarının inkişafına fəal töhfə vermişdir.

Hal-hazırda, Aleksandr Rıtov akademik qurumlara təhsil və tədqiqat mükəmməlliyi əldə etməyə kömək edərək şərəfli missiyasını davam etdirir. O, buna "EBSCO" tədqiqat verilənlər bazaları, elektron kitab kolleksiyaları və "Discovery" axtarış alətləri vasitəsilə dünya səviyyəli elmi məzmuna çıxış imkanını təmin etməklə nail olur.

## Kənan Hacı



Kənan Hacı 1975-ci ildə Bakının Buzovna qəsəbəsində anadan olmuşdur. 1992-ci ildə Xəzər rayonu Buzovna qəsəbəsinin 125 saylı orta məktəbini, 1995-ci ildə jurnalistika fakültəsini bitirmişdir.

1995-ci ildən yazıları mütəmadi olaraq dövri mətbuatda çap olunur. "İki sahil", "Ədalət", "Vətəndaş həmrəyliyi", "Yazar" və digər qəzetlərdə çalışmışdır. APA İnformasiya Agentliyinin "Kulis.az" saytında redaktor, "Qanun" Nəşrlər Evində redaktor, "Publika.az" portalının redaktoru, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin "Aydın yol" qəzetində redaktor vəzifələrində çalışmışdır. Azərbaycan Yaradıcılıq Fondunun "Sim-sim.az" saytının redaktoru olaraq çalışmışdır. "Mücrü" jurnalının baş redaktorudur.

2004-cü ildə Müstəqil Media Mərkəzinin "İlin ən yaxşı jurnalisti" mükafatına layiq görülmüşdür. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Kitab bayramı" yarışmasında "2009-cu ilin Yeni Nəsil yazarı" mükafatını almışdır. "Qızıl Qələm" və "Həsən bəy Zərdabi" mükafatları laureatıdır. 2016-cı ildə Azərbaycan Yazıçılar Birliyi ilə "Ədəbiyyat qəzeti"nin təsis etdiyi "Əli bəy Hüseynzadə" mükafatına layiq görülüb. 2020-ci ildə Orta Asya Yazarlar və Tarixçilər Birliyi tərəfindən Türk Dünyasına xidmətlərinə görə "Turan Birliyi" medalına, 2020-ci ildə "Vektor" Beynəlxalq Elmlər Akademiyası tərəfindən "Şahmar Əkbərzadə" adına beynəlxalq mükafata layiq görülmüşdür.

## Elçin Əzimli



Yazıçı, biznes kouç və təlimçi Elçin Əzimli 1975-ci ildə Azərbaycanın Oğuz şəhərində anadan olmuşdur. İstanbul Universitetinin Politologiya fakültəsinin məzunudur.

“Dan ulduzu” adlı ilk romanı 2019-cu ildə TEAS Press Nəşriyyat evi tərəfindən nəşr olunmuşdur və dəfələrlə ölkəmizdə ən çox satılan kitablar siyahısına düşməyi bacarmışdır. “Çağrı” adlı ikinci romanı 2023-cü ildə TEAS Press tərəfindən nəşr olunmuşdur.

Kanadanın Adler Kouçinq Məktəbini bitirmişdir. Beynəlxalq Kouçinq Federasiyası tərəfindən akkreditasiya olunan Professional Certified Coach® və Mentor Coach dərəcələrinə sahibdir. Emosional intellekt sahəsində beynəlxalq sertifikasiyalara sahib mütəxəssisdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 26 iyul 2019-cu il tarixində təsis olunan “Yüksəliş” müsabiqəsinin baş qiymətləndirici eksperti qismində fəaliyyət göstərmişdir.

## Günel Əsgərova



Günel Əsgərova ixtisasca hüquqşünasdır. Qərb Universitetinin Beynəlxalq Hüquq Fakültəsini fərqlənmə ilə bitirmiş, həmin ixtisas üzrə magistr dərəcəsini Bakı Dövlət Universitetində almışdır. İki dəfə mübadilə üzrə Amerika proqramının məzunu olmuşdur (FLEX, IVLP). Günel xanım artıq on iki ildir ki, təhsil sahəsində fəaliyyət göstərir. Hazırda ADA Universitetində, Tələbə Xidmətləri Şöbəsinin rəhbəri olaraq çalışır.

Yazıçı-ssenarist olaraq uşaq və gənclər ədəbiyyatı sahəsində aparıcı yerli və beynəlxalq səviyyədə tanınan mütəxəsislərdən biridir. İndiyədək Günel xanım 10 nağılın müəllifidir və onun ilk nağılı – "Sülh tütəyi" Kanadada keçirilən nağıl ssenariləri müsabiqəsində qalib olub və Torontodakı festivalda təqdim edilib. Elə həmin il "Sülh tütəyi" nağılının ssenarisi ilə Hollivudda təmsil olunmuş, burada nağıl yüksək qiymətləndirilərək "Üzüklərin hökmdarı", "Malefisenta" kimi məşhur blokbasterlərlə bir sıraya qoyulmuşdur.

2020-ci ilin dekabrında işıq üzü görən "Xanın üç qızı" nağılını Günel xanım öz doğma vətəni Azərbaycana, onun səfalı, gözəl guşələrindən olan Qarabağa həsr etmiş və bu nağıl ilk dəfə Bakıda çap edilmişdir.

2022 -ci ildə növbəti iki kitabı işıq üzü görmüşdür. Kitablardan biri dahi Nizami Gəncəvinin əsərlərinə hərs olunmuş və Mədəniyyət Nazirliyi Tərəfindən maliyyələşdirilən "Xəmsənin Xilası", digəri isə ətraf mühitin qorunmasına həsr olunmuş "Leyli və balaca adamın sirri" nağılıdır. "Xəmsənin Xilası" nağılı Moskva şəhərində keçirilən beynəlxalq müsabiqədə diploma layiq görülmüşdür.

**26 OKTYABR 2023**

**GÜN 2.**

## Dr. Ramil Əhmədov



Ramil Bayram oğlu Əhmədov azərbaycanlı yazıçı, şair, esseist. Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü, Prezident mükafatçısı Ramil Əhmədov 1994-cü il yanvarın 1-də anadan olmuşdur.

2000–2011-ci illərdə Şuşa rayon Malıbəyli kənd 2 saylı orta məktəbində təhsil almışdır. 2006–2011-ci illərdə Şuşa rayon Malıbəyli kənd uşaq musiqi məktəbində musiqi təhsili almışdır.

2011–2015-ci illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində təhsil almışdır. 2015–2018-ci illərdə "Yunus Əmrə Türk Dili Təqaüd Proqramı"nı qazanaraq Memar Sinan Gözəl Sənətlər Universitetində Türk Dili və Ədəbiyyatı ixtisası üzrə magistr təhsili almışdır. 2018-ci ildən İstanbul Universitetinin doktorantıdır.

## İnqilab Şahbazov



İnqilab Şahbazov ixtisasca sosioloqdur. O, "Tədqiqat Metodları" kitabının müəllifidir və 8 ildən artıq tədqiqatçılıq təcrübəsinə malikdir. Hazırda ADA Universitetində Sosiologiya fənni üzrə müəllim kimi çalışır.

Kembric Universitetində 2022-2023-cü illərdə "MPhil in Criminology" ixtisası üzrə ikinci magistratura təhsilini alıb. Onun müxtəlif kriminologiya jurnallarında 9 məqaləsi nəşr edilmişdir. İnqilab bəy "www.tedqiqat.com" veb saytının və "Tədqiqat Metodları" kitabının müəllifidir.

## İltifat İbrahimov



İltifat İbrahimov ADA Universitetinin, İKT şöbəsinin əsas sistemlər və integrasiya bölməsində aparıcı mütəxəssis, həmçinin Azərbaycan Texniki Universitetinin Kitabxana-İnformasiya Mərkəzində rəqəmsallaşma və kitabxana texnologiyaları üzrə baş məsləhətçi olaraq çalışır. İltifat könüllü olaraq beynəlxalq informasiya təminatçılarından olan "Electronic Information for Libraries" (EIFL.net) təşkilatının Azərbaycanda lisenziyalar üzrə ölkə koordinatoru və DOI fondunun qlobal qeydiyyat agentliyi olan "Crossref" təşkilatının Azərbaycan Səfiri olaraq da fəaliyyət göstərir.

## Yunis Oruc



Yunis Oruc 1977-ci il dekabrın 21-də Ermənistan SSR-nin Masis rayonunda (keç. Zəngibasar, daha əvvəl isə Uluxanlı) anadan olub.

Azərbaycan Dövlət Pedoqoji Universitetinin tarix fakültəsinin bakalavr, 2000-ci ildə isə magistr pilləsini bitirib. "Türk xalqlarının mədəniyyəti XI–XV əsrlərdə" mövzusunda magistr dissertasiyasını müdafiə etmişdir.

Jurnalist, yazıçı, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Nargin: saralmış kədər" və "Boraltan: azadlığın tələsi" tarixi romanlarının müəllifidir.

Yunis Oruc 2015-ci ildə Azərbaycanda milli mətbuatın yaranmasının 140 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "əməkdar jurnalist" fəxri adına layiq görülmüşdür. Dövlət başçısının 2019-cu ildə imzaladığı digər sərəncamla isə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubiley medalı ilə təltif olunmuşdur.

27 OKTYABR 2023

GÜN 3.

## Dos. Fariz Əhmədov




1999-2003-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetində Türk Dünyası İşletme Fakültəsində Biznesin təşkili və idarə edilməsi ixtisası üzrə bakalavr təhsili almışdır. 2003-2005-ci illərdə Türkiyə Respublikasının Sakarya Universitetinin Sosial Elmlər İnstitutunda İdarəetmə və təşkilatlandırma ixtisası üzrə magistr, 2006-2010-cu illərdə həmin universitetdə doktorantura təhsilini başa vuraraq iqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır. 2010-2014-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin "Türk Dünyası İqtisad" fakültəsində müəllim, baş müəllim, dosent və kafedra müdirinin müavini vəzifələrində, 2014-2016-cı illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadiyyat və işlətmə" kafedrasının müdiri vəzifəsində çalışmışdır. 2016-cı ildən Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin direktoru vəzifəsində fəaliyyət göstərir. Dünyanın nüfuzlu elmi jurnallarında (Web of science, SCOPUS indeksli) 10-a yaxın olmaqla, ümumilikdə 30-dan çox elmi məqaləsi nəşr olunmuşdur. Bir dərslik, iki dərs vəsaiti, bir tədris metodiki vəsaitin və beş tədris proqramının müəllifidir. 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun (EİF) həyata keçirdiyi "2016-cı ilin gənc alimi" mükafat müsabiqəsinin qalibi olmuşdur. 2020-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmri ilə "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmişdir.

## Dos. Yaşar Kəlbiyev



1982-1989-cu illərdə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda (indiki Azərbaycan Dövlət Neft Akademiyası) İqtisadçı-mühəndis ixtisası üzrə təhsil alıb. 1991-1993-cü illərdə Azərbaycan Dövlət Neft Akademiyasının aspirantura pilləsində təhsil almışdır.

1999-cu ildə iqtisad elmləri namizədi, 2010-cu ildə isə iqtisad elmləri doktoru elmi dərəcəsi və dosent elmi adı almışdır. 1989-1991 – M.Əzizbəyov adına Neft və Kimya İnstitutu, stajçı-tədqiqatçı və mühəndis; 03.1994-10.1995 – M.Əzizbəyov adına Neft və Kimya İnstitutu, “Maşınqayırma sənayesinin iqtisadiyyatı və idarəedilməsi” kafedrası, assistent; 1995-1999 – “Təfəkkür” Universitetində baş iqtisadçı və baş mühasib; 1999 – Vergilər Nazirliyi sistemində şöbə rəisi, Tədris Mərkəzinin rəisi; 2002-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi vəzifələrində işləyib. 2008-2015-ci ilərdə “Vergi və vergiqoyma” kafedrasının müdiri, “Maliyyə və maliyyə institutları” kafedrasının professoru vəzifələrində çalışmışdır.

06 oktyabr 2017-ci ildə uzun müddətli səmərəli elmi-pedaqoji fəaliyyətinə görə UNEC-in “Fəxri Fərmanı” ilə təltif edilib. Hazırda UNEC-in “İqtisadiyyat və texnoloji elmlər” (əvvəlki “İqtisadiyyat və idarəetmə”) kafedrasının müdiridir. Tədqiq sahələri: Vergi siyasəti və vergi inzibatçılığı problemlərinin tədqiqi.

İqtisadiyyatın müxtəlif sahələrinə dair 3 dərslik, 2 dərs vəsaiti, 3 monoqrafiya, 1 metodiki göstərişin müəllifidir. 90-dan çox elmi məqaləsi respublikada və xaricdə nəşr olunub.

# Dos. Aytən Hüseynli




Bakalavr dərəcəsini Azərbaycan Respublikası Nazirlər Kabineti Yanında Xalq Təsərrüfatını İdarəetmə İnstitutu, Biznesin idarə edilməsi (tədris türk dilində) – 1993 – 1997. Magistr – Türkiye Cumhuriyeti Gebze Yüksek Teknoloji Üniversitesi, Biznesin təşkili və idarə edilməsi (tədris türk dilində) – 1997 – 2001. Fəlsəfə doktoru – Azərbaycan Dövlət İqtisad Universiteti, Ümumi iqtisadiyyat – 2002 – 2008. Dissertasiya mövzusu: "Uşaq əməyindən istifadənin sosial iqtisadi problemləri və aradan qaldırılması yolları". Elmlər doktoru – Azərbaycan Dövlət İqtisad Universiteti, Ümumi iqtisadiyyat – 2018-ci ilin yanvarından etibarən. Dissertasiya mövzusu: "Azərbaycanda gənclərin peşə və ixtisasa yiyələnmək imkanlarının genişləndirilməsinin məşğulluğun təmin edilməsinə təsiri". Azərbaycan Dövlət İqtisad Universitetinin "İdarəetmənin təşkili" kafedrasının müəllimi – 2002 – 2006

Azərbaycan Dövlət İqtisad Universitetinin "Biznes inzibatçılığı" kafedrasının baş müəllimi – 2006 – 2017

Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadiyyat və idarəetmə" kafedrasının dosenti – 2017 – 2018

Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadiyyat və idarəetmə" kafedrasının dosenti – 14.09.2018

Azərbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq magistratura və doktorantura mərkəzi"nin direktor müavini – 14.09.2018

Bir çox Beynəlxalq Elmi-Praktik konfrans və seminarlarda iştirak etmişdir.

Milli iqtisadiyyatın aktual problemlərinə aid 30-dan çox elmi əsərin, o cümlədən dərslik və dərs vəsaitlərinin müəllifidir.

## Afaq Hüseyn



1972-ci ildə Bakı şəhərində anadan olmuşdur. 2000-ci ildə dissertasiya işini müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi almışdır. 2007-ci ildə dosent elmi adı almışdır. 1994-2013-cü illərdə İqtisad Universitetində assistent, baş müəllim və dosent, İqtisadiyyatın Tənzimlənməsi Fakültəsinin Elmi Şurasının Elmi Katibi, Universitetin Tədris Metodik Şurasının elmi katibi vəzifələrində çalışmışdır. 2013-2017-cı illərdə AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada İnsan resurslarının idarə edilməsi və dövlət qulluğuna kadrların seçilməsi şöbəsinin müdiri vəzifəsində işləyib. 46 elmi-metodiki əsərin, o cümlədən 6 dərs vəsaitinin müəllifidir. Tədqiqat sahəsi dövlət idarəetməsi, dövlət qulluğu, iqtisadiyyatın dövlət və hüquqi tənzimlənməsi, dövlətin iqtisadi siyasəti, qiymətin əmələgəlməsi, insan resurslarının idarəetməsidir. 30-dan artıq beynəlxalq elmi-praktik konfransda, o cümlədən "Eurasian Forum on Social Sciences" (EFSS 2012) spikeri, VII Astana İqtisadi Forumun spikeri (2014), 2013-2016-cı illərdə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının "Demokratiya, yaxşı idarəçilik və sabitlik üzrə" Platforması nəzdində Dövlət İdarəçiliyi İslahatları üzrə Panelin İşçi Qrupunun, Almaniyanın "GTZ", Avropa İttifaqının "SİGMA" proqramlarının həyata keçirilməsində birgə layihələr çərçivəsində çalışıb. DBB Akademie and "GİZ Staff Appraisal System", "HAUS Finnish İnstitute of Public Management", "Center for Adaptation of the Civil Service to the Standards of the European Union" and National Agency of Ukraine on Civil Service sertifikatlarının sahibidir. 2015-ci ildən iqtisad elmləri doktoru alimlik dərəcəsi üzrə doktorantdır.

Hazırda UNEC Biznes Məktəbində "İqtisadiyyat və biznesin idarə edilməsi" kafedrasının dosentidir. "Karyera planlaşdırılması və inkişafı" kafedrasının müəllimidir

# Nərgiz Hacıyeva



Nərgiz Hacıyeva gənc siyasi alim, İsveçrə Fəxri Federal təqaüdçüsü, UNEC-in gənc doktorantı, “Elmi fəaliyyətin təşkili və idarəedilməsi” departamentinin “Elmi fəaliyyətin təşkili” şöbəsinin müdiridir. O, eyni zamanda, UNEC Xanım Tədqiqatçılar Şurasına rəhbərlik edir.

Nərgiz Hacıyeva 2014-cu ildə Bakı Dövlət Universitetinin “Beynəlxalq Münasibətlər” ixtisasını bakalavriat səviyyəsini, 2017-ci ildə isə Litva və Fransa dövlətlərinin ayırdığı təqaüd hesabına Vytautas Magnus Universitetinin və Sciences PO-nun “Beynəlxalq münasibətlər və diplomatiya” ixtisasının magistratura səviyyəsini fərqlənmə diplomları ilə bitirmişdir.

Avropa Diplomatik Akademiyasının (European Academy of Diplomacy) “Avropa İttifaqının xarici siyasəti” adlı proqramının qrantla fəxri məzunudur.

2018-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Beynəlxalq əməkdaşlıq departamentinin mütəxəssisi, UNEC Beynəlxalq İqtisadiyyat məktəbində ingilis dilində Sosiologiya və Politologiya fənləri üzrə müəllim vəzifələrində çalışmışdır.

Xarici platforma və jurnallarda, Avropanın müxtəlif beyin mərkəzləri və siyasi tədqiqat institutlarında 40-dan çox beynəlxalq münasibətlər və siyasi elmlər üzrə məqalələrin, 16 elmi əsər, 2 kitab, bir kitab fəsli və bir çox tədqiqat işlərinin və elmi layihələrin müəllifidir.

Nərgiz İsveçrə Sürix Universitetinin Siyasi elmlər departamentinin “Democracy NET” gənc alimlər şəbəkəsinin Azərbaycan üzrə fəxri üzvü və gənc tədqiqatçı alimidir.

## Etimad Rəhimli



Azərbaycan Dövlət Neft və Sənaye Universitetində "Sənayenin təşkili və idarə edilməsi" ixtisası üzrə bakalavr təhsili almışdır.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Beynəlxalq Magistratura və Doktorantura Mərkəzində "Biznesin idarə edilməsi" (türk dilində) ixtisası üzrə magistr dərəcəsinə yiyələnmişdir.

2018-ci ildən Türkiyənin İstanbul Universitetinin "İqtisad" ixtisası üzrə doktorantıdır.

"2019-2023-cü illər ərzində Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nı qazanan gənc müəllimlərdəndir.

UNEC-də pedaqoji fəaliyyətdə olduğu müddətdə bir neçə beynəlxalq indeksli xarici jurnallarda elmi məqalələri dərc olunmuşdur.

UNEC-in "İqtisadiyyat və işlətmə" kafedrasının müəllimidir. Türk Dünyası İqtisad Fakültəsində dərs deyir.

## MƏKAN: TƏDBİR & ASUDƏ ZAMAN

**Əsas Zal**
Bina C Tələbə Mərkəzi Akt Zalı Large Auditorium. Building C (ada.edu.az)

**Kitab Sərgisi Ərazisi**

Bina C Tələbə Mərkəzi Divan: Atrium and Dining Hall (ada.edu.az)

**Seminar/Kitab Müzakirəsi məkanları**
Bina B Məclis - Majlis (ada.edu.az)
Bina L Kitabxana – Library (ada.edu.az)

**Kofe, Çay və Nahar**

Bina B - Books and Bytes (ada.edu.az)

Bina C - Divan: Atrium and Dining Hall (ada.edu.az)

Bina C - D'Stresso: Student Center Cafe (ada.edu.az)

Bina L – Coffee Inn Library - Library (ada.edu.az)

**Təbiəti kəşf et**

ADA Bağları – ADA Gardens

---

**Sənədin Sonu**